# ŞAHBAZOV FƏXRƏDDİN İBRAHİM OĞLU



Şahbazov Fəxrəddin 22 yanvar 1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1967-ci ildə 20 saylı orta məktəbi bitirərək, Bakı Neft Texnikumuna daxil olmuşdur. 1969-cu ildə hərbi xidmətə çağırılmışdır. 1971-ci ildə ordudan tərxis olunduqdan sonra yarımçıq qalan təhsilini başa vurmuş və 1972-ci ildə Azərbaycan Teleradio Şirkətində əmək fəaliyyətinə başlamışdır. Burada 20 il fasiləsiz olaraq operator vəzifəsində çalışmışdır. 1988-ci ildə - ermənilərin Qarabağda açıq silahlı basqınlara başladığı vaxtda Fəxrəddin telejurnalistlərlə tez-tez sərhəd rayonlarına gedir, qaynar nöqtələrdən müxtəlif səpkili verilişlərin hazırlanmasında böyük səy göstərirdi. 1991-ci ilin noyabr ayında Azərbaycan Teleradio Şirkətinin bir qrup əməkdaşı cəbhə bölgəsinə ezam olunmuşdu. Fəxrəddin də bu qrupun tərkibində idi. Onlar Ağdam rayon ictimaiyyəti ilə respublikanın rəhbər işçilərinin görüşündən reportaj hazırlamalı idilər. Bu ərəfədə ermənilər Xocavənddə yeni təxribatlar törətmişdilər. Qərara alındı ki, rəhbər işçilər hadisə yerinə getsinlər. 20 noyabr 1991-ci ildə Mİ-8 vertolyotu Ağdam istiqamətindən havaya qalxdı. Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında iriçaplı pulemyotlardan atəşə tutulan vertolyot yerə enərkən parçalandı. Respublikanın tanınmış şəxsləri ilə birlikdə teleoperator F.Şahbazov da həlak oldu. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki qızı var. Azərbaycan Respublikası Prezidentinin 4 dekabr 1992-ci il tarixli 344 saylı Fərmanı ilə Şahbazov Fəxrəddin İbrahim oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 1995-ci ildən Kəlvəz kənd tam orta məktəbi Fəxrəddin Şahbazovun adını daşıyır.